# ZAQATALA ƏRAZİSİNDƏ SƏNAYE ƏHƏMİYYƏTLİ BİTKİLƏRİN ÖYRƏNİLMƏSİ VƏ EFİR YAĞLARININ ALINMASI

**Zümrüd Məmmədova**

*AR ETN Dendrologiya İnstitutu, Bakı*
*zumrud_dendrari@mail.ru*

Zaqatala rayonu Azərbaycan Respublikasının şimal-qərbində, Böyük Qafqaz sıra dağları cənub yamaclarının Qanıx-Əyriçay vadisində yerləşir. Rayon ərazisi relyefinə görə dağlıq və düzənlik zonalarına bölünür. Rayonun şimal ərazilərini əhatə edən dağlıq zona yüksək, orta və alçaq dağlıq qurşaqlardan ibarətdir. Rütubətli subtropik iqlimə malikdir. İqlimi düzənlik və dağətəyi hissədə mülayim isti, yüksək dağlıqda soyuqdur. Zaqatala ərazisinin təqribən yarısını meşələr tutur. Onlar əsasən dağlarda və dağətəyi bölgədə yerləşir. Zaqatala rayonunun florası müxtəlif qiymətli ağac növləri ilə zəngindir – şabalıd, qoz, fındıq, palıd, vələs, qarağac və s. Dərman bitkilərinin tədarükü və emalı sənayesinin inkişafı üçün rayonun ərazisində 1000-ə qədər bitki növü, o cümlədən 50-yə yaxın dərman bitkiləri mövcuddur.

Aparılan tədqiqata əsasən, Zaqatala təbii zənginliklərinə görə xüsusi yer tutur. Rayonda meşə çoxdur, lakin onlar əsasən dağlarda və dağətəyi bölgədə yerləşir. Rayonda 4 iqlim qurşağı mövcuddur.

Zaqatala Dövlət Qoruğunun bir hissəsi bu rayonun ərazisinə düşür. Bu qoruq Azərbaycanın ən qocaman və zəngin biomüxtəlifliyə malik xüsusi mühafizə olunan təbiət ərazilarindən biridir. Qoruğun yaranmasının əsas məqsədi Böyük Qafqaz sıra dağlarının cənub yamaclarındakı nadir bitkilərin təbiət komplekslərinin qorunmasıdır. Bitkilərdən 11 növü Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına düşüb.

Zaqatala rayonunun florası müxtəlif qiymətli ağac, kol-yarımkol və ot bitkiləri ilə zəngindir. Tədqiqat apardığımız ərazilərdə uzunsaplaq palıd (*Q.longipes*), qızılağac (*Alnus sp.*), qanadmeyvə yalanqoz (*Pterocarya pterocarpa*), ardıc (*Juniperus* L), ağyarpaq qovaq (*Popylus hybrida*), İberiya palıdının (*Quercus iberica*) üstünlük təşkil etdiyi meşələrdir. Dağ-meşə qurşağında fıstıq (*Fagus orientalis*) və vələs meşələri (*Carpinus caucasica*) yayılmışdır. Fıstıq meşələrində qafqaz vələsi (*Carpinus*), qarağac (*Ulmus glabra*), çinaryarpaq ağcaqayın (*Acer platanoides*), qafqaz cökəsi (*Tilia caucasica*), albalı (*Cerasus sp*.), adi göyrüş (*Fraxinus exelsior*), ağrıovunduran quşarmudu (*Sorbus torminalis*) kimi ağac-kol növlərinə rast gəlinir. Yuxarı dağ-meşə qurşağında şərq palıdı *(Quercus macranthera*), trautvetter ağcaqayını (*Acer trautteveri*) və tozağacından (*Betula sp*.) ibarət qarışıq meşələr yayılmışdır. Bunlar əsasən mürəkkəbçiçəklilər (*Compositae*), paxlalılar (*Fabaceae*), taxıllar (*Graminae*), gülçiçəklilər (*Rosaceae*), qərənfil (*Caryophyllales*), dodaqçiçəklilər (*Labiateae*), qaymaqçiçəklilər (*Ranunculaceae*) fəsilələrinə aid bitkilərdir. Ərazidə rast gəlinən qaraçöhrə (*T.baccata*), ayı fındığı (*Colyrus colurna*), qanadmeyvə yalanqoz (*P.pterocarpa*), qafqaz xurması (*Diospyros lotus*), pastuxov daşsarmaşığı (*Hedera pastuchovii*), mlokoseviç pionu (*Paeonia mlokosewitschii*), laqodex acıçıçəyi (*Gentiana lagodechiana*) Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına salınmışdır.

Qoruq ərazisində unikal ağcaqayın meşələri yayılmışdır. Meşələrin yuxarı sərhəddində 64 ha sahədə tozağacı meşələrinə rast gəlinir. Litvinov tozağacından (*Betula litwinowii*) ibarət olan bu meşəliklər şimal ekspozisiyasının daşlı sərt yamaclarında yayılmışdır.

Tədqiqat zamanı ərazidə bizi maraqlandıran dərman əhəmiyyətli və efiryağlı bitkilər qeydə almışıq. Bu bitkilərdən Adi boymadərən (*Achillea millefolium* L.), Pişik dırnağı (*Antennaria dioica* (L.) *Gaertn*.), Əyilən

tozağacı (*Betula pendula Roth*), Quşəppəyi (*Capsella bursa-pastoris* (L.) *Medik.*), Qaraqınıx (*Origanum vulgare* L.), Kəklikotu (*Thymus nummularius M.B.*), İkievli gicitkan (*Urtica dioica* L.), Adam zəfəranı *(Crocus adamii J.Gay*), Üskükotu (*Digitalis ferruginea* L.), Erkək ayıdöşəyi (*Dryopteris filix mas* (L.) *Schott*), İtburnu (*Rosa canina* L.), Qara gəndalaş (*Sambucus nigra* L.), Zaqafqaziya kəklikotusu (*Thymus transcausicus Ronn*), Dərman bədrənci (*Melissa Officinalis* L.) və s.-ni göstərmək olar.

Ekspedisiya zamanı efiryağlı dərman bitkilərindən Adi boymadərən, Qaraqınıx, Kəklikotu, Adam zəfəranından tədqiqat aparmaq məqsədilə nümunələr toplanmışdır. Xammal nümunələrindən hidrodistill-yasiya metodu ilə (Qinzberq) efir yağı alınmış, %-lə miqdarı müəyyən edilmişdir. Efir yağının kimyəvi tərkibi "Kristal" 2000 M markalı qaz-maye xromatoqrafiya üsulu ilə təyin edilmişdir.

**Nəticə.** Aparılan tədqiqat zamanı Zaqatala ərazisində yayılan ağac, kol-yarımkol və ot bitkiləri haqqında xeyli sayda məlumat əldə etdik. Əsasən efiryağlı, dərman əhəmiyyətli və aromatik bitkilərin yayılma arealını müəyyən etdik. Zaqatala bölgəsindən gətirilmiş bəzi xammal nümunələrinin hidrodistillya-siya metodu ilə (Qinzberq) efir yağı alınmış, %-lə miqdarı öyrənimiş, "Kristal" 2000 M markalı qaz-maye xromatoqrafiya üsulu ilə kimyəvi təkibi təyin edilmişdir.